UOT 32:93/94

XƏYYAM İSMAYILZADƏ
Bakı Dövlət Universiteti
Beynəlxalq münasibətlər kafedrası
Siyasi elmlər üzrə fəlsəfə doktoru
Ekonika22@yahoo.com

MÜASİR DÖVRDƏ ABŞ-ÇXR MÜNASİBƏTLƏRİNDƏ RƏQABƏTİN MÜXTƏLİF FORMALARI

DOI: https://doi.org/10.36719/2708-065X/105/148-152

Məqalədə soyuq müharibə bitdikdən sonra iki dövlət arasında iqtisadi, hərbi, siyasi, texnoloji, mədəni rəqabətin parametrləri haqqında məlumat verilir. Eyni zamanda, burada mövcud olan ABŞ-ÇXR arasındakı rəqabət yeni formalaşan dünya düzəninə, eləcə də beynəlxalq münasibətlər sisteminə təsir amilləri geniş göstərilmişdir ki, bu da, şübhəsiz ki, onlarn tədqiq olunmasını zəruri edən şərtlərdən biridir.

Açar sözlər: ABŞ, ÇXR, Ümumdünya Ticarət Təşkilatı, Bretton- Vuds sistemi, geosiyasət, strategiya, rəqabət, milli maraqlar, kibertəhlükəsizlik, sivilizasiya, demokratiya.

Giriş. Qeyd olunmalıdır ki, ABŞ-ÇXR münasibətlərinin tarixi kökləri XVIII əsrin sonlarına təsadüf edir. Zaman- zaman regionda baş verən müharibələrə, Çindəki mədəni inqilaba və fundamental dəyişikliklərə baxmayaraq, bu əlaqələr enişli-yoxuşlu da olsa, bu günə qədər fasiləsiz olaraq davam etmişdir. İki ölkə arasındakı münasibətlərin tarixi mahiyyətinə nəzər saldıqda "kommersiya" xüsusiyyətinin hakim mövqedə olduğu anlaşılır. Dünyanın iki ən böyük iqtisadiyyatı olan Pekin və Vaşinqton arasında maliyyə və ticarət əlaqələrinin ölçüsü və xarakteri qlobal miqyasda da mühüm əhəmiyyət kəsb edir. Bu münasibətlər iki ölkəni çox mürəkkəb qarşılıqlı asılılıq vəziyyətinə gətirmişdir ki, qısa və ortamüddətli perspektivdə bundan imtina etmək mümkün deyil. İki dövlət arasında rəqabətin bütün formaları həm ikitərəfli münasibətlərə, həm də qlobal və regional miqyasda digər dövlətlərin inkişafına bilavasitə təsir göstərir. ABŞ-Çin rəqabəti ikitərəfli münasibətləri aşaraq daha geniş planda özünü göstərir. Bu rəqabəti şərti olaraq beş sahə üzrə ümumi dəyərləndirmək əlverişli olardı.

İqtisadi rəqabət. Çinin iqtisadi rəqabət potensialı yaxın tarixdə baş verən proseslərlə əlaqəlidir. Tarixən içə qapalı, kəndli-fəhlə cəmiyyətinin mövcud olduğu Çin xarici dünyaya açılaraq iqtisadi münasibətlər sistemində aktiv rol oynamağa başladı. Onun dövlətçilik ənənəsinin əsasında milli birlik, milli homogenlik, stabilliyin saxlanması kimi prinsiplər dayanır. Çin iqtisadi inkişafın davamlılığını qorumaq üçün daxili qarışıqlıqlardan və beynəlxalq münaqişələrdən qaçmaqdadır. Onun qərar-alma və hadisələrə müdaxilə etmə instinktləri ABŞ-dan çox fərqlənir. İslahatların uğurlu aparılması və ticarət əngəllərinin ortadan qaldırılması ilə iqtisadi artımda 7-8%-lik orta göstəriciyə nail olunmuşdur. Çin bu tempi qorumağı bacarsa, 2030-ci ildə on trilyon dollarlıq iqtisadiyyatı ilə ABŞ iqtisadiyyatına yaxın və ya ona bərabər nəticə əldə edəcəkdir. Çinin strategiyası silahlanma və ittifaqlara qoşulmaqdan çox, yumşaq və passiv gücün tətbiqinə əsaslanır. Bu strategiya Den Syaopinin Çini böyük dövlət yox, region dövləti kimi göstərmək səylərinin məntiqi davamıdır. Belə ki, o, rəqabətdə ön plana çıxmamaq, ifrat müxalif tərz nümayiş etdirməmək, diqqətləri başqa yönə çəkmək və daima özünü güclü göstərməmək yolunu seçmişdir.

Çin plagiat məhsulların satışının həyata keçirildiyi ən geniş yayılmış ölkədir. Bu səbəbdən o, ABŞ tərəfindən mülkiyyət haqlarının pozulması və iqtisadiyyata milyardlarla dollar ziyan vurduğuna görə Ümumdünya Ticarət Təşkilatına şikayət edilmişdir [1]. Bununla, rəqabət mühitində arxa planda qalan Avropa və ABŞ bazarları ÜTT və digər yollarla Çinə təsir etməyə çalışırlar. İqtisadi sahədə daha bir anlaşmazlıq Çin pulunun (yuanın) aşağı dəyərdə olduğu üçün ticarət zamanı ABŞ-ın xarici ticarət kəsirlərinin yaranmasıdır. ABŞ isə Çindən idxal etdiyi məhsullar üzərində gömrük vergisini artırmaqla adekvat addımlar atır. Çin yuanın dəyərinə süni müdaxiləni gündəmə gətirən qanunun qəbul edildiyi halda ticarət müharibəsinin başlayacağını açıq ifadə etmişdir.

2008-ci ilin dünya maliyyə böhranı ABŞ iqtisadiyyatına öz təsirini göstərərkən hərbi xərclərin çoxluğu və işsizliyin artması durğunluğun yaranması ilə nəticələndi. Böhranın ardından rəsmi statistikalar ABŞ-da təqribən 25 milyon işsiz olduğunu göstərdi. B.Obamanın daxili siyasətdə islahatlar aparması qismən effektiv təsir bağışlasa da, ciddi dəyişikliklərə səbəb olmadı. Demokratların seçkiləri uduzması ilə sosial-iqtisadi sahədə aparılan islahatlar öz aktuallığını itirməyə başladı. Yeni prezident D.Trampın vədlərindən biri kapitalın daxilə yönəldilməsi və transmilli şirkətlərin ölkəyə qayıtması ilə iqtisadiyyatın dirçəldilməsi idi. Onun iqtisadi və rifah problemlərini həll etmək üçün yeni xətt götürəcəyi düşüncəsi bir qədər inam yaratsa da, az sonra bu vədlər öz ciddiliyini itirməyə başladı. Trans-Sakit Əməkdaşlığından geri çəkilmə, Paris iqlim müqaviləsini imzalamama kimi addımlar böyük narazılıqlarla qarşılandı.

ABŞ iqtisadiyyatının geriləməsindəki ən böyük amillərdən biri virtual iqtisadiyyat sisteminin tətbiq edilməsidir. Belə ki, 1971-ci ildə ölkə Bretton-Vuds sistemini ləğv edərək qızıl-dollar sistemindən dollar-dollar sisteminə keçdi. Dolların heç bir qarşılığı olmadan dəyər qazanması üçün xarici bazarlara çıxarılması təklif olundu və kreditlər şəklində ölkəni tərk etdi. Dəyərin yaradılması prosesində isə bu kütlə ABŞ-a yenidən qayıtmalı idi. Nəticədə ABŞ borc almağa başladı və dollardan dollar qazanma metodunu yaratmış oldu. Lakin bu sistem dayanıqlı deyildi və inflyasiya riskini artırırdı. Bu məsələ hal-hazırda da dünya ekspertləri tərəfindən müzakirə olunmaqdadır. O cümlədən, çinli analitiklər də bu vəziyyətdən narahatdır. Çin qızıl ehtiyatlarını artıraraq dolların hakimiyyətindən yaxa qurtarmağa çalışır. Hətta 2017-ci ildə Şanxay birjasının neftin satışını yuanla həyata keçirməyə başlaması bu sahədə yeni addımlardan biri idi. Dollar ağalığından və iqtisadi sanksiyalardan qurtulmağa çalışan Rusiya və İran kimi ölkələr də bu birjaya meyl etməkdədirlər [2].

Hərbi rəqabət. Prezident Obamanın "Asia Pivot" (Asiyaya dönüş) siyasətini elan etməsi ilə ABŞ-ın qlobal strateji təhlükəsizliyi yenidən dəyərləndirilmiş və Orta Şərq öz mövqeyini Asiya-Sakit regionuna vermişdir. Prezident verdiyi hesabat ilə İraq müharibəsinin uğurla başa çatdığı, Əl-Qaidənin böyük bir qisminin yox edildiyi, Bin Ladenin öldürülməsi ilə keçmişdəki bir çox hədəflərinə nail olduqlarını bildirdi. Yeni təhlükəsizlik siyasətinin hədəfləri isə Çin və Şərqi Asiyanı göstərirdi. Burada Çin qüvvələr balansını dəyişməyə çalışan, Yaponiya və Hindistan isə onu balanslaşdıra biləcək ölkələr kimi göstərilmişdi. Qısası, ABŞ yeni müdafiə doktrinasını Çin mərkəzli paradiqma ətrafında formalaşdıracaqdı. 2002-ci ildəki müdafiə doktrinasından fərqli olaraq o, super güc mövqeyinin zəifləməsi səbəbilə, böyük hərbi müdaxilələrdən qaçacaq və qüvvələr balansını qoruyan rasional siyasət izləyəcəkdi. Bu strategiyanın əsas xətlərindən biri odur ki, rəqibin regional problemlərlə başını qatmaqla qlobal məsələlərə müdaxiləsi əngəllənməli, rəqiblər arasındakı qarşıdurma sona qədər izlənilməli və ən son anda müdaxilə edərək avantaj qazanılmalıdır. ABŞ bu taktikadan birinci və ikinci dünya müharibələrinin gedişində istifadə etmiş və uğurlu olmuşdur. Elə bu səbəbdən onun Çini zəiflətmə siyasətini regional toqquşmaları qızışdırmaqla həyata keçirəcəyi ehtimal olunur [3, s.21].

Çin ətrafında geosiyasi vəziyyət olduqca mürəkkəbdir. Bir tərəfdən Cənubi Çin dənizində geostrateji rəqabət və kiçik adalar uğrunda mübarizə, Hindistanın geosiyasi rəqabətə qoşulması, digər tərəfdən isə Şimali Koreyanın nüvə sınaqları onun qonşularını narahat etməkdədir. ABŞ isə regionda müttəfiqlərini silahlandırmağa və hərbi bazalarının sayını artırmağa davam edir. O, ən son Filippində beş hərbi baza açaraq müdafiə zolağını gücləndirdi [4]. ABŞ Asiyanın şərqində şimaldan cənuba uzanan bu zolaqla Çinə dənizdən nəzarət etməyə çalışır. Çin isə Cənubi Çin dənizində hərbi donanmasını genişləndirir, çünki Filippin burada kiçik adalara iddia irəli sürür. Çini itirmək qorxusunu ABŞ-ın diqqətinə çatdıran Pekin hökuməti hər iki ölkənin qarşılıqlı maraqları olduğunu xüsusi vurğulayır [4]. ABŞ isə bölgədəki qüvvələr balansını leyhinə çevirmək üçün Çinin qonşuları ilə əməkdaşlıq edir. ABŞ-ın bu strateji xətti siyasi leksikonda "əhatələmə" və ya "çəpərləmə siyasəti" (containment policy) kimi ifadə olunur. Bu yolla o, Çinin ətrafında müttəfiqlərindən ibarət halqa yaradır və onu təcrid etməyə çalışır. ABŞ-ın bölgədəki başlıca müttəfiqləri Yaponiya, Cənubi Koreya və Tayvandır. Onun Yaponiya, C.Koreya, Tayland və Filippində hərbi bazaları mövcuddur. Həmçinin o, Asiyanın iqtisadi birliklərində aktiv fəaliyyət göstərir (Tramp dövrü istisnadır). İkili siyasət aparan ABŞ həm də Çinlə əlaqələri normal səviyyədə inkişaf etdirməyə çalışır və onunla əməkdaşlıq edir. Kənardan anlaşılmaz görünsə də, bu, amerikan diplomatiyasının ənənəvi metodudur və hər iki yolla mənfəət qazanmağa hesablanıb. Çin ilk növbədə ABŞ-ın Tayvana dəstəyindən və onun raketdən

müdafiə sistemlərindən narahatdır. O, ABŞ-ın Kosova və İraq müdaxilələrindən narahat olduğunu da heç vaxt gizlətməmişdir. Bunun əsas səbəbi Çində də münaqişəli Tayvan, Tibet, Sintzyan-Uyğur kimi bölgələrin olmasıdır. Bu baxımdan o, hərbi gücünü modernizasiya edərək mövqelərini gücləndirməyə çalışır. Onun həssas olduğu zonalar kimi enerji maraqlarının olduğu Xəzər hövzəsi-Orta Şərq-Şimal və Şimal-şərqi Afrika seçilir. Çinin İran, Misir, Liviya, Qatar və S.Ərəbistanında dəniz limanları və Cibutidə bir hərbi bazası yer almaqdadır. Bu zolağın qorunması enerji təhlükəsizliyinin təmin olunması baxımından önəmlidir. İkinci belə bir zolaq Tayvan-Malakka boğazı-Hind Okeanını əhatə edir ki, enerji təhlükəsizliyi ilə yanaşı hərbi-geosiyasi amil də bura əlavə olunur [4].

Çin son dövrdə hərbi xərclərini fantastik dərəcədə artıran böyük dövlətlərdən biridir. Buna baxmayaraq, o, hərbi xərclərin miqdarına görə ABŞ-dan üç dəfə geridə qalır. 2015-ci ilin rəsmi statistikasına əsasən dünya üzrə ümumi hərbi xərcləmələr 1.6 trln. dollar təşkil edirdi ki, onun 37%-i təkcə ABŞ-ın payına düşür [5]. Onu ikinci sırada Çin izləyir (təqribən 14%). 2007-ci ildə isə hərbi büdcədə 17%-lik artım qeydə alınmışdır. Həmin dövrdən etibarən artan hərbi büdcə 2012-ci ildə 100 mlrd. dollara çatmışdır [6, s.94-95].

Siyasi rəqabət. İqtisadi böyümə ilə yanaşı Çin dünya siyasətində də söz sahibi olmağa çalışır. Bu mövqeyə yiyələnmək üçün o, iqtisadi və hərbi cəhətdən güclənməyə davam edir, ABŞ-ın qlobal nüfuzunun zəifləməsindən istifadə edir, enerji mənbələrinə sahib olmaq üçün Afrika və Orta Şərq bazarlarına girməyə çalışır, ona yönəlmiş təhdidləri aradan qaldırmaq üçün regional və qlobal əməkdaşlığa can atır və özünün təhdid kimi qəbul edilməsi əleyhinə kampaniya aparır. Lakin Çinin siyasi tutumunda müəyyən boşluqlar vardır. Sosial və siyasi elmlərdə Çin universitetləri nə qədər inkişaf etsə də, yenə də ABŞ-la rəqabət aparmaq potensialında deyillər. Bu baxımdan müəyyən disiplinə malik olmayan Çin beyin köçü hesabına daha da güclənən ABŞ elitası qarşısında zəif görünür. Onun xarici siyasətini cazibədar edən məqam sülh və suverenlik prinsiplərini hər zaman dəstəkləməsidir. Sərhəd bölgələrində qarışıqlıq olan və demokratik sistemə yiyələnməyən Çin onunla oxşar modelə malik ölkələrlə mütəffiqlik edə bilər. Lakin demokratik baxışın yaratdığı ictimai fikirə qarşı bu yaxınlaşma özünü doğrultmaya bilər. Belə ictimai fikri formalaşdıran mərkəzlər isə qərbmərkəzli qurumlar, QHT-lər, demokratik institutlardır. ABŞ-ın isə xalq hərəkatlarına, insan haqq və azadlıqlarına, demokratiyaya həssas yanaşması faktoru xarici siyasətdə ona güvənin formalaşmasına səbəb olur (Körfəz ölkələrinə münasibətdə bu cür davranmasa belə) [3, s.25].

Texnoloji rəqabət. Rəqabətdə xüsusi əhəmiyyətə malikdir. ABŞ-SSRİ arasında olan kosmik rəqabətin əhəmiyyətini buna misal göstərmək olar. Texnoloji rəqabət hər şeydən əvvəl psixoloji üstünlük və dünya ictimaiyyətini idarə etmək baxımından önəm təşkil edir. Çin bu sahədə sürətli yüksəlişə çatmışdır. 2003-cü ildə açıq kosmosa insan göndərməklə yanaşı, yaxın tarixdə Ay və Marsın incələnməsi üçün pilotsuz hava aparatlarının göndərilməsi layihələri də böyük təşəbbüslərdən biridir. Çin xaricə göndərdiyi minlərlə tələbələri sayəsində bir çox texniki elmlərə yiyələnsə də, bu sahədə də ABŞ-dan geridə qalmaqdadır.

Bu sahədə sağlam rəqabət aparmaq üçün ölkələrin kibertəhlükəsizliyinin qorunması vacib şərtdir. Texnologiya və informasiya dövründə bu sahəyə verilən əhəmiyyət beynəlxalq münasibətlərin aktual məsələlərindən birinə çevrilmişdir. Ölkələrin internet sistemlərinə kiberhücumlar həyata keçirilməsi ciddi zərərlərə yol açmaqla bir daha bu mövzunun milli təhlükəsizlikdə payını artırır. Bu səbəbdən dövlətlərin maraqları toqquşur və onlar üz-üzə gəlirlər. 1999-cu ildə konsulluğun bombalanması zamanı yaranan böhranda Çin ABŞ-ın bəzi dövlət qurumlarının internet saytlarına kiberhücumlar təşkil etməklə cavab vermişdir. Bu sahədə yaşanan ən böyük problemlərdən biri Çinin kiberhücumları nəticəsində ABŞ-ın hərbi, texnoloji və s. informasiyalarını əldə etməsidir. ABŞ-a görə Çin bu informasiyaları gizli şəkildə əldə edərək öz iqtisadi və texnoloji layihələrində tətbiq edir. Bu amil ABŞ-ın rəqabət qabiliyyətinə ciddi şəkildə təsir edir. Xüsusilə, yeni əsrdə aktuallaşmağa başlayan bu sahəyə nəzarət edilməsi üçün dünya liderləri birgə səylər göstərir. 2015-ci ildə ABŞ-da keçirilən zirvə görüşündə iştirak edən Çin prezidenti S.Tsinpin və həmkarı B.Obama bu məsələni beynəlxalq hüquq qaydaları çərçivəsində dəyərləndirmiş, qarşılıqlı razılaşma əldə edilmişdir. Yenə də ikitərəfli görüşlərin keçirilməsi və tərəflərin müsbət rəyləri bu sahəyə nəzarətin asanlaşmasına ciddi təsirlər göstərmədi. Kibertəhlükəsizlik məsələsi çoxşaxəli və kompleks xarakter aldığından onun təmin olunmasında praktiki səhvlər özünü həmişə göstərməkdədir. Bu səbəbdən texnoloji və digər sahələrdəki

rəqabət mühitinin sağlamlaşdırılması baxımından ən böyük əngəl də məhz budur. Bu amil dövlətlərarası inamın zəifləməsinə gətirib çıxarır [3, s.28].

Mədəni rəqabət. ABŞ film, musiqi, sənət sahələrində əldə etdiyi nailiyyətlərlə universal dəyər simvoluna çevrilməyi çoxdan bacarmış bir ölkədir. Çin isə bu sahədə özünə maraq oyandıra bilməmişdir. Dünya liderliyinə can atan bir ölkənin yumşaq güc baxımından geridə qalması məntiqlə düzgün deyil. İqtisadi və hərbi parametrlərlə yanaşı, Çindəki mühafizəkar sosial-siyasi quruluş qütbləşmənin, eləcə də gələcəkdə ehtimal olunan qarşıdurma şəraitinin yaranmasına zəmin yaradır. Sivilizasiya-ölkə olan Çin bu ənənəvi formatı qorumağa çalışır və getdikcə öz yerini möhkəmlədir. Qərb mədəniyyətinin dünyaya hakim olması Çin sivilizasiyasını narahat edir. Buna alternativ olaraq, Çin özünün qədim fəlsəfə və mədəniyyətinə qayıtmağa çalışır. Qərb-Şərq qarşıdurmasının fonunda gerçəkləşən ABŞ-Çin arasındakı mədəniyyət müharibəsi bu qarşıdurmaya fərqli format qazandırır. ABŞ-ın yumşaq siyasətdəki uğurları Çini qarşılıqlı cavablar verməyə vadar edir. Çinin sərt güc yerinə yumşaq gücə üstünlük verməsini onun xarici siyasətinin ən mühüm və lazımi məqamlarından hesab etmək olar. Buraya ideoloji-mədəni, iqtisadi amillər daxildir. Çin dünyanın müxtəlif yerlərində konfutsi məktəbləri açmaqla öz dil və mədəniyyətini tanıdır, hər il minlərlə amerikalı tələbə Çinə, çinli tələbələr də ABŞ-a təhsil almağa gedirlər. İqtisadi fonda isə Çin Afrika qitəsinə genişmiqyaslı investisiyalar qoyur, böyük kreditlər verir, enerji layihələrində iştirak edir. Təsadüfi deyildir ki, Çin son illərdə dünyanın ən nəhəng kreditorlarından birinə çevrilmişdir.

"Çin təhdidi" anlayışını unutdurmaq üçün yumşaq güc siyasəti və mədəniyyət rəqabətinə girmək müasir dövrdə önəm daşıyır. Bu siyasətin əsas göstəriciləri Konfutsi institutlarının açılması, Çin mədəniyyətini özündə əks etdirən malların bazarlara çıxarılması, xarici ölkələrə edilən kredit yardımlarıdır. Bəzi analitiklərə görə yumşaq siyasətin qarşısındakı əngəllərdən ən böyüyü Çinin təkpartiyalı sistemə malik olması və mediya quruluşları ilə hökumət arasında sıx əlaqələrin mövcudluğudur. "Xinhua" xəbər agentliyi və bir çox böyük media quruluşlarının, o cümlədən, Çin kinofilm sənayesinin üzərində dövlət nəzarəti güclü olduğundan bu sahələr beynəlmiləlləşə bilmir. 120-dən çox ölkəyə yayılan, Çin dili və mədəniyyətini tanıtdırmağa çalışan Konfutsi institutları da yumşaq siyasətdə xüsusi rol oynayır. Çin iqtisadi olaraq gücləndikcə xarici ölkələrə etdiyi yardım və investisiyaları da artırır. Çin Afrika və Orta Şərq ölkələrinə münasibətdə onların daxili işlərinə qarışmamaq prinsipinə sadiq qalaraq iqtisadi dəstək göstərir, beynəlxalq platformalarda isə onların dəstəyini alır və nüfuzunu artırır. Bu siyasət də yumşaq gücün effektiv tərkib hissəsi olmaqla "Çin təhdidi"ni ortadan qaldırmağa hədəflənmişdir [3, s.32].

Nəticə. Müasir dünyamızda Amerika Birləşmiş Ştatları və Çin Xalq Respublikası arasındakı münasibətlərdə rəqabət xüsusilə nəzərəçarpandır. Geosiyasi və geoiqtisadi proseslərin ağırlıq mərkəzi regiona keçdikcə, istər- istəməz həm ABŞ, həm də Avropa Birliyi ölkələri öz maraqlarını açıq ifadə etməyə başlamışlar. Güman etmək olar ki, gələcəkdə dünyada baş verən siyasi- iqtisadi proseslərin dinamik inkişafı və iki dövlət arasında rəqabət formalarının kəskin şəkildə intensivləşməsi dünya siyasətinin əsas aparıcı məsələlərindən birinə çevriləcəkdir.

ƏDƏBİYYAT

1. United States - Certain Methodologies and their Application to Anti-Dumping Proceedings Involving China. URL: https://www.wto.org/english/tratop_e/dispu_e/cases_e/ds471_e.htm [14.02.2024].
2. Dünya Savaşı hiç bu kadar yakın olmamıştı. URL: https://www.odatv.com/guncel/3-dunya-savasi-hic-bu-kadar-yakin-olmamisti-131068 [14.02.2024].
3. Örmeci O.S. XXI Yüzyılda ABD-Çin rekabeti. İzmir: Genç okur, 2013, 114 s.
4. http://www.abhaber.com/cin-abd-savasi-cikar-mi/ [14.02.2024].
5. U.S. Military Spending vs. The World. URL: https://www.nationalpriorities.org/campaigns/us-military-spending-vs-world/ [14.02.2024].
6. Rüzgar S.A. Askeri, ekonomik ve siyasal boyutlarıyla Çin-ABD ilişkilerinin dönüşümü. Kayseri: Altınlar, 2017, 107 s.

ХАЙЯМ ИСМАИЛЗАДЕ
Бакинский Государственный Университет,
кафедра международных отношений,
доктор философских наук, и.о. доцента

РАЗЛИЧНЫЕ ФОРМЫ КОНКУРЕНЦИИ В ОТНОШЕНИЯХ США И КНР В СОВРЕМЕННОЕ ВРЕМЯ

В статье представлена информация о параметрах экономической, военной, политической, технологической, культурной конкуренции между двумя государствами после окончания «холодной войны». При этом широко показаны факторы влияния конкуренции между США и КНР на формирующийся миропорядок, а также на систему международных отношений, что, несомненно, является одним из условий, обусловливающих необходимость изучить их.

Ключевые слова: США, КНР, Всемирная Торговая Организация, Бреттон-Вудская система, геополитика, стратегия, конкуренция, национальные интересы, кибербезопасность, цивилизация, демократия.

KHAYYAM ISMAYILZADEH
Baku State University,
Department of International Relations,
Doctor of Philosophy in Political Science, Acting Associate Professor

DIFFERENT FORMS OF COMPETITION IN US-PRC RELATIONS IN MODERN TIMES

The article provides information about the parameters of economic, military, political, technological, cultural competition between the two states after the end of the cold war. At the same time, the influence factors of the competition between the US and the PRC on the newly formed world order, as well as on the system of international relations, are widely shown, which is undoubtedly one of the conditions that make it necessary to study them.

Keywords: USA, PRC, World Trade Organization, Bretton Woods system, geopolitics, strategy, competition, national interests, cyber security, civilization, democracy.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 fevral 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: s.e.d. Ramiz Sevdimalıyev, s.e.d. Adil Mirabdullayev.